**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

Günel Mehman qızı Aslanova

# Cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji xüsusiyyətləri

6117.01- Hüquqi psixologiya

Psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı-2018**

İş Bakı Dövlət Universitetinin Psixologiya kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: psixologiya üzrə elmlər doktoru,
professor **Elnarə İbrahim qızı Şəfiyeva**

Rəsmi opponentlər: psixologiya üzrə elmlər doktoru,
professor **Gülnarə Kazım qızı Qurbanova**

psixologiya üzrə fəlsəfə doktoru,
dosent **Əzim Əli oğlu Əliyev**

Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Univeristetinin
**Ümumi psixologiya kafedrası**

Müdafiə "___" "_________" 2018-ci ildə saat "___" da Bakı Dövlət Universitetinin nəzdində psixologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən
B/ FD.02.014 Dissertasiya şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi 23, II korpus, otaq 901

Dissertasiya ilə BDU-nun elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2018-ci ildə göndərilib.

B/FD. 02.014 Dissertasiya şurasının elmi katibi — psixologiya üzrə fəlsəfə doktoru, dosent **Rəşid Vəkil oğlu Cabbarov**

# İ Ş İ N Ü M U M İ S Ə C İ Y Y Ə S İ

**Mövzunun aktuallığı.** Qadınlar tərəfindən törədilən cinayətlərin hüquqi-psixoloji təhlili göstərir ki, bir çox hallarda patriarxal mühitin makro və mezo səviyyəli dolayı təsirlərinin, eləcə də ailədaxili zorakı mühitin mikro səviyyəli birbaşa təsirlərinin cinayi davranışa səbəb ola bilmək ehtimalı nəzərə alınmır. Şübhəsiz ki, bu kimi zorakılıq amilləri şəxsiyyətin inkişafının sonrakı mərhələlərində qadının mühitə olan adaptasiyasına təsirsiz ötüşmür, onun sosial münasibətlərində problemlər yaradır. Hesab edirik ki, cinayətkar qadının cəmiyyətə reinteqrasiya və adaptasiya olunması üçün resosializasiya prosesində həm şəxsiyyətin psixoloji xüsusiyyətləri, həm də gender amili nəzərə alınmalıdır. Müasir penitensiar sistemdə cinayətkar qadın şəxsiyyətinin resosializasiyasına dair islahatlara ciddi zərurət duyulur. Bu zərurət bir neçə cəhətdən aktuallıq kəsb edir.

Əvvəla, müasir dövrdə cinayətkarlığın əhatə dairəsi genişlənmişdir. Azərbaycan Statistika Komitəsinin cinayət törətmiş şəxslərlə bağlı təqdim etdiyi məlumatları da təhlil etdikdə məlum olur ki, 1993-2011-ci illər ərzində qadın cinayətkarlığının sayında ciddi dəyişikliklər olmuşdur. Belə ki, 1993-cü ildə ümumi cinayət törətmiş şəxslərin sayı 14968 nəfər (14241 kişi, 727 qadın) olmuşdur. Yəni, 1993-ci ildə ümumi cinayət törətmiş şəxslərin gender tərkibi 95,1% (kişilər) və 4,9% (qadınlar) təşkil etmişdir. 2011-ci ildə isə ümumi cinayət törətmiş şəxslərin sayı 18612 nəfərə qədər artmışdır. Gender tərkibində bu dəfə maraqlı dəyişikliklərə rast gəlirik. Qadın cinayət törətmiş şəxslər 2074 nəfər olmaqla, ümumi cinayət törətmiş şəxslərin 11%-i, kişi cinayət törətmiş şəxslər isə 16538 nəfər olmaqla, ümumi cinayət törətmiş şəxslərin 89%-ni təşkil etmişlər.

İkincisi, qadın cinayətkarlığının tərkibində kəmiyyətlə yanaşı, keyfiyyət baxımından da sağlam ailə modelini təhlükə altına ala biləcək mənfi istiqamətli köklü dəyişikliklər yaranmışdır. Belə ki, digər cinayətlərlə müqayisədə mülkiyyət əleyhinə olan cinayətlərin sayından artım qeyd olunmuşdur.

Üçüncüsü, qadın şəxsiyyətinin inkişaf etdirilməsinin sosial-psixoloji aspektləri, yəni, qadının özünügerçəkləşdirməsinin psixoloji mexanizmləri ilə onun zorakılığa məruz qalması faktının qarşılıqlı əlaqəsi sistemli şəkildə tədqiq olunmamış, həmçinin bu məsələnin penitensiar sistemdə qadın şəxsiyyətinin resosializasiyası baxımından olan mühüm əhəmiyyəti araşdırılmamışdır.

Bu kimi halların qarşısının alınması üçün cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji cəhətlərinin araşdırılmasına geniş ehtiyac duyulur. Belə qənaətə gəlmək olar ki, penitensiar sistemlə yanaşı, müxtəlif digər müəssisələrdə də qadın şəxsiyyətinin özünügerçəkləşdirməsinin psixoloji mexanizmlərinin nəzərə alınması həm qadının cəmiyyətdə sağlam rolunun formalaşması, həm də qadın cinayətkarlığının profilaktikası baxımından zəruridir. Bütün bunları nəzərə alıb "Cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji xüsusiyyətləri" mövzusunun tədqiqat obyekti kimi seçilməsini məqsədəuyğun hesab etmişik.

**Mövzunun işlənmə səviyyəsi.** Cinayətkar şəxsiyyətinin formalaşmasının psixoloji

qanunauyğunluqları həmişə tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Bu problemin tədqiqinə həsr olunmuş tədqiqatları aşağıdakı kimi qruplaşdırmağı məqsədə uyğun hesab edirik:

1. XIX-XX əsrlər - Cinayətkar şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin təhlilinə həsr olunmuş nəzəriyyə və tədqiqatlar. Bu nəzəriyyə və tədqiqatlar Ç.Lombrozo, H.Qross, F.Vulfe, K.Marbe, Klapared, R.Luvaja, H.Tox, O.Abraxamson, E.Krasnuşkin, P.Qannuşkin, A.Rappoport, S.Poznışev, M.Qernet və başqalarının əsərlərində öz əksini tapır.

2. XX əsrin ikinci yarısından sonra - Cinayətkar şəxsiyyətinin formalaşmasında cinsi fərqlərin təhlilinə həsr olunmuş nəzəriyyə və tədqiqatlar. Konkret olaraq qadın şəxsiyyətinin formalaşmasının mexanizmləri ilə bağlı məsələlər F.Adler, S.Artz, S.Boyd, K.Faith, T.Bricking, L.Crites, G.Hamiltonun əsərlərində geniş şəkildə təhlil olunmuş, bu istiqamətdə bir sıra metodoloji məsələlər müəyyən edilmişdir.

3. XXI əsrin əvvəllərindən - Cinayətkar qadın şəxsiyyətinin resosializasiya problemlərinin həllini nəzərdə tutan nəzəriyyə və tədqiqatlar. Bu dövrdə K. Van Vormer, Ş.Broun, K.Vidom, B.Richie, C.Jones, L.Burt tərəfindən aparılmış tədqiqatlarda cinayətkar qadın şəxsiyyətinə konseptual şəkildə yanaşılmışdır.

Şəxsiyyətin inkişafının, davranış xüsusiyyətlərinin sosial-psixoloji və eləcə də, hüquq-psixoloji aspektdən tədqiqi ilə Azərbaycan psixoloqlarından B.H.Əliyev, Ə.S.Bayramov, Ə.Ə.Əlizadə, K.R.Əliyeva, R.H.Qədirova, Ə.T. Baxşəliyev, E.İ.Şəfiyeva, S.İ.Seyidov, R.V.Cabbarov, M.H.Mustafayev, Q.E.Əzimov, S.M.Quliyev, S.M.Məcidova, Q.N.Vəliyev, F.A.İbrahimbəyov, G.Q.Hüseynova, R.A.İbrahimbəyova E.B.Bəylərov və başqaları məşğul olmuşlar.

**Tədqiqatın obyektini** cinayətkar qadın şəxsiyyətinin resosializasiyası təşkil edir.

**Tədqiqatın predmeti** cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji xüsusiyyətlərinin təhlilidir.

**Tədqiqatın məqsədi** cinayətkar qadın şəxsiyyətinin resosializasiyasına təsir göstərən psixoloji amillərin müəyyən edilməsi, xüsusi terapiya proqramları vasitəsilə cinayətkar qadınların özünügerçəkləndirməsinə istiqamətlənmiş əlverişli mühitin yaradılmasından ibarətdir.

**Tədqiqatın metodoloji əsasları və metodikası.** Tədqiqat prosesində şəxsiyyətin özünügerçəlləşdirməsi ilə bağlı olan başlıca müddəalara, şəxsiyyətin təşəkkülündə genderə əsaslanan psixoloji fərqlər, qadın cinayi davranışının təzahür xüsusiyyətləri və cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji cəhətləri ilə bağlı olan sosial-psixoloji qanunauyğunluqlara, bu sahədə mövcud olan başlıca nəzəri müddəalara istinad edilmiş, A.Maslounun özünüaktuallaşdırma nəzəriyyəsi, Qlen Uoltersin həyat tərzi nəzəriyyəsi və gender əsaslı zorakılıqla əlaqədar patriarxal nəzəriyyə əsas götürülmüşdür. Tədqiqatın metodologiyası sistemlilik, determiniz, inkişaf və konkret tarixi yanaşma prinsiplərinə əsaslanmışdır. Tədqiqatda müşahidə, eksperiment, sorğu, E.Şostromun "Özünüaktuallaşdırma" testi, Sprecer və Fehrin "Şəfqət" testindən istifadə olunmuşdur. Cinayətkar qadınların psixoloji xüsusiyyətlərinin eksperimental tədqiqi Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 4 saylı qadın cəzaçəkmə müəssisəsində aparılmışdır. Eksperiment iki mərhələdə aparılmış, birinci mərhələdə diaqnostik ölçmələr aparılmış, ikinci mərhələdə isə cinayətkar qadın şəxsiyyətinin

özünügerçəkləçləşdirməsinə istiqamətlənmiş psixoloji işdən sonra yenidən ölçmələr aparılmış və nəticələr müqayisə edilmişdir. Əldə olunmuş nəticələrin kəmiyyət və keyfiyyət təhlili aparılmış, nəticələr SPSS 20 kompüter proqramının köməyi ilə hesablanmışdır. Tədqiqatda 169 nəfər iştirak etmişdir.

**Tədqiqatın vəzifələri.** Qarşıya qoyulmuş məqsədi həyata keçirmək üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

1. Cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji xüsusiyyətlərinin tədqiqinin nəzəri-metodoloji əsaslarını müəyyən etmək;

2. Şəxsiyyətin resosializasiyası prosesində gender amilinin rolunu təhlil etmək;

3. Cinayətkar şəxsiyyətinin psixososial səciyyəsini təsvir etmək;

4. Cəzaçəkmə müəssisəsində cinayətkar qadınlarla psixoloji işin təşkilinin konseptual əsaslarını müəyyən etmək;

5. Penitensiar müəssisədə cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji xüsusiyyətlərinin effektivliyinin meyarlarını və səviyyələrini işləyib hazırlamaq;

6. Cinayətkar qadınların psixoloji xüsusiyyətlərinin diaqnostikasının nəticələrini törətdikləri cinayətə əsasən müqayisəli şəkildə təhlil etmək;

7. Cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji cəhətlərini nəzərə alaraq metodik tövsiyə hazırlamaq.

**Tədqiqatın fərziyyəsi.** Cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının effektivliyi onun özünügerçəkləşdirməsinə istiqamətlənmiş məhsuldar mühitin təşkilindən asılıdır.

Əsas fərziyyəyə uyğun olaraq, tədqiqat işində köməkçi fərziyyələr də irəli sürülmüşdür:

1. Cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının nəticələrini onun şəxsiyyətini təşkil edən xarici və daxili şərtlər toplusuna istiqamətlənmiş psixoloji iş müəyyən edir. Xarici şərtlərə: makro, mikro və mezo səviyyədə gender əsaslı zorakılıq, daxili şərtlərə isə özünügerçəkləşdirmənin komponentləri olan assertivlikdən, öz daxili potensialını aşkarlamaqdan, ümumbəşəri dəyərləri dərk etməkdən, eləcə də şəfqət hissindən məhrumluq aiddir.

2. Penitensiar müəssisədə psixoloji işin cinayətkar qadınların şəxsiyyət tipologiyalarına əsasən təşkil olunması onların şəxsiyyətlərinin resosializasiyasına müsbət təsir edir.

**Tədqiqatın elmi yeniliyi.** Əvvəlki tədqiqat işlərindən fərqli olaraq bu tədqiqat işində cinayətkar qadın şəxsiyyətinin formalaşmasına təsir edən psixososial amillər sistemləşdirilmiş, cinayətkar qadın şəxsiyyətinin özünügerçəkləşdirməsini nəzərə alan xüsusi resosializasiya proqramının metodoloji əsasları yaradılmışdır. İlk dəfə olaraq bu tədqiqat işində:

- Cinayətkar qadın şəxsiyyətinin strukturu, onlar arasında qarşılıqlı əlaqələr və qadın cinayi davranış mexanizmləri haqqındakı elmi təsəvvürlər dərinləşdirilmiş, gender əsaslı zorakılığın qadın şəxsiyyətinin inkişafına göstərdiyi amillər aşkarlanmışdır;

- Cinayətkar qadın şəxsiyyətinin strukturu, onlar arasında qarşılıqlı əlaqələr və qadın cinayi davranış mexanizmləri haqqındakı elmi təsəvvürlər dərinləşdirilmiş, gender əsaslı zorakılığın qadın

şəxsiyyətinin inkişafına göstərdiyi təsirlər ayırd edilmişdir;

- Cinayətkar qadın şəxsiyyətini tədqiq etməyə imkan verən sistemli, yeni psixodiaqnostik və psixoterapevtik alətlər dəsti tərtib edilmişdir;

- Özünügerçəkləşdirmənin sosial-psixoloji mexanizmlərinin nəzərə alınması əsasında hazırlanmış universal psixodiaqnostika metodlarına əsaslanan resosializasiya proqramının həyata keçirilməsi nəticəsində cinayətkar qadın şəxsiyyətinin pozitiv istiqamətli dəyişiklikləri müəyyən edilmişdir;

- Qadın cinayətkarlığının həm profilaktikası, həm də residivizminin qarşısının alınması məqsədi ilə xüsusi tövsiyələr hazırlanmışdır.

**Müdafiəyə təqdim olunan əsas müddəalar:**

- Qadın şəxsiyyətinin özünügerçəkləşdirməsi assertivlik, daxili potensialını aşkarlama və ümumbəşəri dəyərlərin mövcudluğuna əsasən müəyyən edilir;

- Cinayətkar qadın gender əsaslı zorakılıq və özünügerçəkləşdirmənin mühüm komponentləri olan assertivlik, daxili potensialı aşkarlamaq və əxlaqi dəyərlərin formalaşmaması nəticəsində cinayi seçim edir;

- Qadına qarşı zorakılığın qarşısının alınması, qadın şəxsiyyətinin özünügerçəkləşdirməsinə şərait yaradılması, belə ki, onu assertiv davranışa, daxili potensialını aşkarlamağa, ümumbəşəri dəyərləri mənimsəməyə sövq edən əlverişli mühitin yaradılması, cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının əsas şərtləridir;

- Penitensiar müəssisədə cinayətkar qadınların törətdikləri cinayətə əsasən təsniflənməsi, bu təsnifat daxilində onların şəxsiyyət xüsusiyyətlərinə yönəlik psixoloji işin təşkil olunması resosializasiya prosesinin nəticələrinə müsbət təsir edir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Tədqiqat işində müasir psixologiyada mövcud şəxsiyyət nəzəriyyələrinə istinad etməklə qadınların cəmiyyətdə zorakılıqdan uzaq şəkildə azad, müstəqil olmalarının, özlərinigerçəkləşdirə bilmələrinin, öz daxili imkanları əsasında şəxsiyyətlərini inkişaf etdirmələrinin, bəşəri dəyərləri mənimsəmələrinin yolları araşdırılmışdır. Bu biliklərə əsaslanaraq cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının konseptual əsasları müəyyən edilmiş, cinayətkar qadınlarla psixoloji işin nəzəriyyəsi təkmilləşdirilmiş, tərtib edilmiş, cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının əsaslarına dair elmi tövsiyələr hazırlanmışdır. Əldə olunmuş nəticələr hüquq və şəxsiyyət psixologiyasını yeni biliklərlə zənginləşdirir, müvafiq islah sisteminin Azərbaycanda tətbiqinə və cinayətkar qadınların resosializasiyasının yeni istiqamətdə inkişafına şərait yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dissertasiyada irəli sürülən praktik tövsiyələr cinayətkar qadın şəxsiyyətinin resosializasiyası, islahı, cəmiyyətə reinteqrasiyası, residiv qadın cinayətkarlığının qarşısının alınması ilə yanaşı, ümumilikdə qadın şəxsiyyətinin təşəkkülü, özünügerçəkləşdirməsi, cəmiyyətə inteqrasiyası prosesində və eləcə də qadın cinayətkarlığının profilaktikasında uğurla istifadə oluna bilər. Tədqiqatın nəticələrindən penitensiar xidmət, hüquq-mühafizə orqanı işçiləri, psixoloqlar faydalana bilərlər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Tədqiqatın nəticələri Bakı Dövlət Universitetinin

Psixologiya kafedrasının seminarlarında, müxtəlif elmi konfranslardakı məruzə və çıxışlarda müzakirə edilmiş, dissertasiyanın əsas müddəaları, nəticə və tövsiyələri çap olunmuş əsərlərdə öz əksini tapmış və bu yolla aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## İ Ş İ N Ə S A S M Ə Z M U N U

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı, işlənmə səviyyəsi, tədqiqatın obyekti, predmeti, fərziyyəsi, məqsəd və vəzifələri açıqlanmış, elmi yeniliyi, müdafiəyə çıxarılan müddəaları, nəzəri, praktik əhəmiyyəti və aprobasiyası öz əksini tapmışdır.

Dissertasiya işinin **"Problemin elmi ədəbiyyatda qoyuluşu və tədqiqi istiqamətləri"** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. **"Şəxsiyyətin resosializasiyası məsələlərinin tədqiqi"** adlanan birinci yarımfəsildə şəxsiyyətin resosializasiyası məsələlərinin tədqiqi istiqamətləri nəzərdən keçirilmiş, bu istiqamətdə aparılan tədqiqatlar sistemləşdirilərək ümumiləşdirilmişdir. Şəxsiyyətin resosializasiyasının meyarı qismində özünügerçəkləşdirməyə istiqamətlənmək, özünügerçəkləşdirmənin mərhələlərinə yiyələnmək ideyası irəli sürülür. Belə ki, özünügerçəkləşdirmə üç mərhələdən - assertivlik, daxili potensialı aşkarlama, əxlaqi adlanan 3 proqressiv mərhələdən ibarətdir. Bu yarımfəsildə eyni zamanda qeyd olunur ki, özünügerçəkləşdirmənin ilk mərhələsi asılılıqdan (psixoloji simbioz əlaqə) qurtulmaq,

ətrafa adekvat şəkildə inteqrasiya olunmaq və özünütənzimləmək ilə, ikinci mərhələsi şəxsiyyətin öz daxili potensialını aşkarlamağa cəhd etməsi ilə, üçüncü ali mərhələsi isə məhdud "Mən"in inkişaf etdirilərək ümumbəşəri dəyərlərlə eyniləşdirilməsi ilə xarakterizə olunmalıdır.

Birinci fəslin ikinci yarımfəsli **"Qadın şəxsiyyətinin psixoloji təhlili və resosializasiya prosesində gender amilinin rolu"** adlanır. Bu yarımfəsildə qadın şəxsiyyətinin psixoloji təhlili verilir, resosializasiya prosesində gender amilinin nəzərə alınmasının əhəmiyyəti vurğulanır, həmçinin cinayətkar qadın şəxsiyyətinin resosializasiyana təsir göstərən amillər psixoloji tədqiqatın obyektinə çevrilir. Həmçinin, qadın və kişinin özünügerçəkləşdirməsindəki fərqlər müqayisəli şəkildə təhlil edilərək diqqət mərkəzinə gətirilmişdir. Qadın şəxsiyyətinin özünügerçəkləşdirməsi üçün kişilərdən fərqli olaraq iki spesifik psixososial amilin kompleks olaraq mövcud olması ideyası önə çəkilir: müvafiq (patriarxal olmayan) mədəni mühit və qənaətbəxş münasibətlər sistemi. Fikrimizcə, məhz bu zəruri spesifik psixososial amillərin mövcudluğu sayəsində qadın özünügerçəkləşdirmənin hər üç mərhələsinə nail ola bilər.

Birinci fəslin üçüncü yarımfəsli **"Cinayətkar qadın şəxsiyyətinin psixososial səciyyəsinin resosializasiya aspektindən dəyərləndirilməsi"** adlanır. Bu yarım fəsildə cinayətkar qadın şəxsiyyətinin psixoloji xüsusiyyətləri və formalaşması amilləri təhlil olunur. Belə ki, bu yarımfəsildə məntiqi ardıcıllığa uyğun olaraq qadın cinayi davranışını izah etmək, cinayətkar qadın şəxsiyyətinin formalaşması

mexanizmlərini anlamaq, eləcə də cinayətkar qadın şəxsiyyətinin resosializasiyasını təşkil etmək baxımından məhz, gender əsaslı zorakılıqla əlaqədar patriarxal nəzəriyyəyə, A.Maslounun özünüaktuallaşdırma nəzəriyyəsinə, eləcə də Qlen Uoltersin həyat tərzi nəzəriyyəsinə əsaslanan cinayətkar qadın şəxsiyyətinə yeni psixososial yanaşmamıza istinad edilir. Bu yarımfəsildə qeyd etmək olunur ki, cinayətkar qadın şəxsiyyəti üç amilin təsiri nəticəsində formalaşır: zorakılığa məruz qalmaq, özünügerçəkləşdirə bilməmək və şəfqət hissindən məhrumluq. Zorakılığa məruz qalması nəticəsində özünügerçəkləşdirə bilməmiş cinayətkar qadınlar, zorakılığa məruz qalması nəticəsində özünügerçəkləşdirə bilməmiş qanuna riayət edən qadınlardan şəfqət hislərinin olmaması ilə fərqlənirlər.

Dissertasiyanın **"Penitensiar müəssisədə cinayətkar qadinlarla psixoloji işin təşkilinin konseptual əsaslari"** adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. İkinci fəslin birinci yarımfəsli **"Cinayətkarlığın hüquqi-psixoloji təhlilinin penitensiar müəssisədə gender əsaslı resosializasiya prosesinin təşkilində əhəmiyyəti"** adlanır. Bu yarımfəsildə cinayətkarlığın hüquqi-psixoloji təhlilinin penitensiar müəssisədə gender əsaslı resosializasiya prosesinin təşkilində əhəmiyyəti vurğulanır. Həmçinin bu yarımfəsildə 1993-cü ildən 2011-ci ilə qədər qadın cinayətkarlığına dair rəsmi statistikanın təhlili aparılmış, qadınlar tərəfindən törədilən cinayətlərin xarakteri, istiqaməti, törədilmə vasitələrində əhəmiyyətli dəyişikliklərin yaranması, eləcə də qadın cinayətkarlığının ümumi cinayətkarlığın strukturunda rolunun yüksəlməsi ilə əlaqədar məsələlər araşdırılmışdır. Sosial mühit və qadının həyat tərzi, sosial rollarının dəyişilməsi ilə əlaqələndirdiyimiz bu dəyişikliklərə cinayətkar qadın şəxsiyyətinin resosializasiyası prosesində istinad etmək zəruridir.

Dissertasiyanın ikinci fəslinin ikinci yarımfəsli **"Penitensiar müəssisədə resosializasiya prosesinin cinayətkar qadınların şəxsiyyət xüsusiyyətlərinə əsasən təşkil olunması məsələləri"** adlanır. Bu yarımfəsildə penitensiar müəssisədə resosializasiya prosesinin cinayətkar qadınların şəxsiyyət tipologiyalarına əsasən təşkil olunması məsələləri tədqiq edilmişdir. Beləliklə, həm resosializasiya prosesinin praktik cəhətləri ilə əlaqədar xarici ölkə təcrübələrini öyrənərək həm elmi ədəbiyyatda sosializasiya, desosializasiya, sosial adaptasiya məsələlərinin resosializasiya prosesi ilə qarşılıqlı əlaqəsini təhlil edərək, eləcə də resosializasiya prosesinin mərhələ, səviyyə və vəzifələri ilə bağlı ümumiləşdirmələr apararaq belə bir qənaətə gəlirik ki, cinayətkar şəxsiyyətinin resosializasiyası özünəməxsus xüsusiyyətlərə malikdir.

Dissertasiyanın ikinci fəslinin üçüncü yarımfəsli **"Məhkum qadınların resosializasiyası prosesi"** adlanır. Bu yarımfəsildə resosializasiyasının effektivliyinin yüksəldilməsi üzrə priorotet istiqamətlər qeyd olunur. Qadın məhkumlarla resosializasiyaedici istiqamətdə aparılan psixoloji işin mərhələləri açıqlanır.

Dissertasiyanın **"Cinayətkar qadin şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin eksperimental-psixoloji tədqiqi"** adlanan üçüncü fəsli üç yarımfəsildən ibarətdir. Üçünücü fəslin birinci yarımfəsli **"Eksperimental tədqiqatın təşkili və keçirilməsi"** adlanır. Bu yarımfəsildə tədqiqat üçün seçilmiş eksperimental metodikaların seçimi əsaslandırılmış və onların istifadəsi məqsədləri şərh edilmiş, eksperimentin məzmunu, onun mərhələləri və əsas məqsədləri təsvir olunmuşdur. Tədqiqat alınmış

eksperimental materialın toplanması, təhlili və interpretasiyasına konseptual yanaşma çərçivəsində aparılmışdır. Tədqiqatda cinayətkar qadın şəxsiyyətinin psixoloji xüsusiyyətlərinə uyğun materiallar vasitəsilə xüsusi olaraq yaradılmış şəraitdə onların şəxsiyyətinin psixoloji xüsusiyyətlərinin, formalaşmasına təsir göstərən psixoloji amillərin, eləcə də resosializasiyalarının psixoloji cəhətlərinin eksperimental baxımdan öyrənilməsinə cəhd edilmişdir.

Cinayətkar qadınların psixoloji xüsusiyyətlərinin eksperimental tədqiqi 2014-cü ilin aprelindən 2014-cü ilin iyuluna kimi Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 4 saylı qadın cəzaçəkmə müəssisəsində aparılmışdır. Tədqiqata 169 nəfər məhbus qadın cəlb edilmişdir. 169 nəfər 3 qrupda cəmlənərək, 1-ci qrup 33 nəfər olmaqla şəxsiyyət əleyhinə cinayət törətmiş qadınlar, 2-ci qrup 100 nəfər olmaqla mülkiyyət əleyhinə cinayət törətmiş qadınlar və 3-cü qrup isə 36 nəfər olmaqla mənəviyyat əleyhinə cinayət törətmiş qadınları əhatə etmişdir.

Tədqiqat iki mərhələdən ibarətdir: diaqnostik və eksperimental. Birinci mərhələ cinayətkar qadın şəxsiyyətinin özünügerçəkləşdirməsi, şəfqət hissi və zorakılığa məruz qalma faktı arasındakı əlaqənin öyrənilməsinə həsr edilimişdir. İlk olaraq bu mərhələdə, tərtib edilən sorğunun köməyi ilə cinayətkar qadınların zorakılığa məruz qalma faktının öyrənilməsini özündə ehtiva edən psixoloji diaqnostika keçirilmiş, cinayətkar qadınların zorakılığa məruz qalmasında sosial mühitin rolu aydınlaşdırılmışdır.

Törədilən cinayətin növünə əsasən cinayətkar qadınların zorakılığa məruz qalma faktının müəyyən edilməsinin çarpaz təsviri

Cədvəl 3.1

| Cinayətin növü | | Zorakılığın növü | | | | |
|---|---|---|---|---|---|---|
| | | Yoxdur | Mikro | Mezo | Makro | Ümumi |
| Şəxsiyyət əleyhinə cinayət törətmiş qadınlar | Say | 0 | 7 | 6 | 20 | 33 |
| | Faiz | 0% | 21,2% | 18,2% | 60,6% | 100,0% |
| Mənəviyyat əleyhinə cinayət törətmiş qadınlar | Say | 0 | 6 | 5 | 25 | 36 |
| | Faiz | 0% | 16,7% | 13,9% | 69,4% | 100,0% |
| Mülkiyyət əleyhinə cinayət törətmiş qadınlar | Say | 3 | 13 | 21 | 63 | 100 |
| | Faiz | 3,0% | 13,0% | 21,0% | 63,0% | 100,0% |
| Ümumi cinayət törətmiş qadınlar | Say | 3 | 26 | 32 | 108 | 169 |
| | Faiz | 1,8% | 15,4% | 18,9% | 63,9% | 100,0% |

Cədvəl 3.1.-dən göründüyü kimi tədqiqatda iştirak etmiş cinayətkar qadınların 98,2% müxtəlif

səviyyəli zorakılığa məruz qalırlar.

Bu mərhələdə biz həmçinin Şostromun "Özünügerçəkləşdirmə" metodikasından istifadə etdik. Bu metodikanın köməyi ilə cinayətkar qadınların özünügerçəkləşdirmə səviyyələri müəyyən edilmişdir.

Törədilən cinayətin növünə əsasən cinayətkar qadınların özünügerçəkləşdirmə səviyyələrinin müəyyən edilməsinin çarpaz təsviri

Cədvəl 3.2

| Cinayətin **növü** | | Özünügerçəkləşdirmə nin səviyyələri | | | |
|---|---|---|---|---|---|
| | | Aşağı | Orta | Yüksək | **Ü**mumi |
| **Ş**əxsiyyət **ə**leyhin**ə** cinay**ə**t t**ö**r**ə**tmi**ş** qad**ı**nlar | Say | 33 | 0 | 0 | 33 |
| | Faiz | 100% | 0% | 0% | 100,0% |
| M**ə**n**ə**viyyat **ə**leyhin**ə** cinay**ə**t t**ö**r**ə**tmi**ş** qad**ı**nlar | Say | 36 | 0 | 0 | 36 |
| | Faiz | 100% | 0% | 0% | 100,0% |
| M**ü**lkiyy**ə**t **ə**leyhin**ə** cinay**ə**t t**ö**r**ə**tmi**ş** qad**ı**nlar | Say | 98 | 2 | 0 | 100 |
| | Faiz | 98,0% | 2,0% | 63,0% | 100,0% |
| **Ü**mumi cinay**ə**t t**ö**r**ə**tmi**ş** qad**ı**nlar | Say | 167 | 2 | 0 | 169 |
| | Faiz | 98,8% | 1,2% | 0% | 100,0% |

Cədvəl 3.2-dən göründüyü kimi tədqiqatda iştirak etmiş cinayətkar qadınların 98,8% özünügerçəkləşdirmə üzrə aşağı göstəricilərə malikdir.

Diaqnostik mərhələdə şəfqət hissini müəyyənləşdirmək məqsədi ilə cinayətkar qadınlar üzərində Sprecher və Fehr "Şəfqət" testi də tətbiq edilmişdir.

Törədilən cinayətin növünə əsasən cinayətkar qadınların şəfqət hissi səviyyələrinin müəyyən edilməsinin çarpaz təsviri

Cədvəl 3.3

| Cinayətin **növü** | | Şəfqət hissi | | | |
|---|---|---|---|---|---|
| | | Aşağı | Orta | Yüksək | **Ü**mumi |
| **Ş**əxsiyyət **ə**leyhin**ə** cinay**ə**t t**ö**r**ə**tmi**ş** qad**ı**nlar | Say | 33 | 0 | 0 | 33 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Faiz | 100% | 0% | 0% | 100,0% |
| Mənəviyyat əleyhinə cinayət törətmiş qadınlar | Say | 36 | 0 | 0 | 36 |
| | Faiz | 100% | 0% | 0% | 100,0% |
| Mülkiyyət əleyhinə cinayət törətmiş qadınlar | Say | 95 | 5 | 0 | 100 |
| | Faiz | 95,0% | 50% | 63,0% | 100,0% |
| Ümumi cinayət törətmiş qadınlar | Say | 164 | 5 | 0 | 169 |
| | Faiz | 97,1% | 2,9% | 0% | 100,0% |

Cədvəl 3.3.-dən göründüyü kimi tədqiqatda iştirak etmiş cinayətkar qadınların 97,1% şəfqət hissi üzrə aşağı göstəricilərə malik olmuşlar.

Müəyyən etdiyimiz göstəricilərə əsaslanaraq cinayətkar qadınların zorakılığa məruz qalma faktı və özünügerçəkləşdirmə səviyyələri arasındakı korrelyasiya əlaqəsi öyrənilmişdir.

Cinayətkar qadınların özünügerçəkləşdirmə səviyyəsi və zorakılığa məruz qalması faktı arasındakı korrelyasiya əlaqəsinin təsviri

Cədvəl 3.4

| | | | |
|---|---|---|---|
| Zorakılığa məruz qalma faktı | Pirson əmsalı | Mövcuddur | -.661** |
| | Əhəmiyyətlidir (2 tərəfli əlaqə) | | .000 |
| | N | 169 | 169 |
| Özünügerçəkləşdirmə səviyyəsi | Pirson əmsalı | -.661** | Aşağı |
| | Əhəmiyyətlidir (2 tərəfli əlaqə) | .000 | |
| | N | 169 | 169 |

**. Korrelyasiya 0.01 səviyyəsində əhəmiyyətlidir (2 tərəfli əlaqə).

Cədvəl 3.4.-dən göründüyü kimi zorakılığa məruz qalmaq və özünügerçəkləşdirmək arasında neqativ korrelyasiya olduğu aşkarlanır. Pirson əmsalı -0,661-ə bərabərdir. Bu nəticələr belə şərh olunur ki, zorakılığa məruz qalan qadınlar özlərinigerçəkləşdirmək imkanından məhrum olurlar.

Cinayətkar qadınların həmçinin şəfqət hissi və özünügerçəkləşdirmə səviyyələri arasındakı korrelyasiya əlaqəsi də öyrənilmişdir.

Cinayətkar qadınların özünügerçəkləşdirmə səviyyəsi və şəfqət hissi səviyyələri arasındakı korrelyasiya əlaqəsinin təsviri

Cədvəl 3.5

| | | | |
|---|---|---|---|
| Özünügerçəkləşdirmə səviyyəsi | Pirson əmsalı | Aşağı | .505** |
| | Əhəmiyyətlidir (2 tərəfli əlaqə) | | .000 |
| | N | 169 | 169 |
| Şəfqət hissi səviyyəsi | Pirson əmsalı | .505** | Aşağı |
| | Əhəmiyyətlidir (2 tərəfli əlaqə) | .000 | |
| | N | 169 | 169 |

**. Korrelyasiya 0.01 səviyyəsində əhəmiyyətlidir (2 tərəfli əlaqə).

Cədvəl 3.5.-dən göründüyü kimi şəfqət hissi və özünügerçəkləşdirmə səviyyələri arasında pozitiv korrelyasiya olduğu aşkarlanır. Pirson əmsalı 0,505-ə bərabərdir.

Özünügerçəkləşdirmə və zorakılıq, eləcə də özünügerçəkləşdirmə və şəfqət hissi arasında reqressiya analizi apardıq. Burada özünügerçəkləşdirməni asılı dəyişən, zorakılıq və şəfqət hissini isə müstəqil dəyişənlər olaraq müəyyən etdik.

Cinayətkar qadınların zorakılığa məruz qalma faktı, şəfqət hissi və özünügerçəkləşdirmə səviyyələri arasındakı xətti reqressiv əlaqənin təsviri

Cədvəl 3.6

**MÖVQE XÜLASƏSİ**

| Mövqe | R | R Kvadrat | R kvadratı təxmini | Dəyərləndirmədə standart səhv |
|---|---|---|---|---|
| 1 | .661[a] | .436 | .433 | .100 |
| 2 | .505[a] | .255 | .251 | .115 |

**ANOVA[a]**

| Mövqe | | Kvadratları cəmi | df | Orta kvadrat | F | Əhəmiyyət |
|---|---|---|---|---|---|---|
| 1 | Regressiya | 1.286 | 1 | 1.286 | 129.335 | .000[b] |
| | Qalıq | 1.661 | 167 | .010 | | |
| 2 | Regressiya | .753 | 1 | .753 | 57.306 | .000[b] |
| | Qalıq | 2.194 | 167 | .013 | | |
| | Ümumi | 2.947 | 168 | | | |

**ƏMSAL**

| Model | Standart olmayan B | Standart yayınma əmsalı | Standart Beta əmsalı | t | Əhəmiyyət | Tolerantlıq | VIF |
|---|---|---|---|---|---|---|---|
| 1 (Sabit) | 1.667 | .058 | | 28.949 | .000 | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Zorakılığa məruz qalma faktı | -.661 | .058 | -.661 | -11.373 | .000 | 1.000 | 1.000 |
| 2. Sabit | .612 | .054 | | 11.276 | .000 | | |
| Şəfqət hissi səviyyəsi | .394 | .052 | .505 | 7.570 | .000 | 1.000 | 1.000 |

a. Müstəqil dəyişənlər: Zorakılığa məruz qalma faktı, Şəfqət hissi səviyyəsi

b. Asılı dəyişən: Özünügerçəkləşdirmə səviyyəsi

Cədvəl 3.6.-dan göründüyü kimi həm zorakılığa məruz qalmaq faktı, həm də şəfqət hissi səviyyəsi üzrə əhəmiyyət dəyəri 0,000<0,05 olduğu üçün qurulan mövqe əhəmiyyətli kimi şərh edilə bilər. Belə ki, hər iki müstəqil dəyişənin asılı dəyişən olan özünügerçəkləşdirmə səviyyəsinə əhəmiyyətli təsiri var.

Tədqiqatın ikinci mərhələsində 10 şəxsiyyət əleyhinə, 10 mülkiyyət əleyhinə, 10 mənəviyyat əleyhinə cinayət törətmiş cinayətkar qadınlardan ibarət üç qrupa özünügerçəkləşdirməyə istiqamətlənmələri məqsədilə xüsusi terapiya proqramı tətbiq edilmişdir. Qrupların hər birinin terapiya proqramının tətbiqindən əvvəl müəyyən edilən özünügerçəkləşdirmə üzrə göstəriciləri ilə terapiya proqramının tətbiqindən sonra müəyyən edilən özünügerçəkləşdirmə üzrə göstəricilərinin müqayisəsi zamanı əldə olunan nəticələr özünügerçəkləşdirmə potensialının inkişaf mənzərəsini, terapiya proqramının effektivliyini təsdiq edir.

Şəxsiyyət, mənəviyyat və mülkiyyət əleyhinə cinayət törətmiş qadınların xüsusi terapiya proqramının tətbiqindən əvvəl müəyyən edilən özünügerçəkləşdirmə üzrə göstəriciləri ilə terapiya proqramının tətbiqindən sonra müəyyən edilən özünügerçəkləşdirmə üzrə göstəricilərinin inkişaf mənzərəsi

Cədvəl 3.7

| Özünügerçəkləşdirmə səviyyəsi | | Əvvəl | | Sonra | |
|---|---|---|---|---|---|
| | | Məhkum qadınların sayı | % | Məhkum qadınların sayı | % |
| Şəxsiyyət əleyhinə cinayət törətmiş qadınlar | Aşağı<br>Orta<br>Yüksək | 10<br>0<br>0 | 100<br>0<br>0 | 0<br>2<br>8 | 0<br>20<br>80 |
| Mənəviyyat əleyhinə cinayət törətmiş qadınlar | Aşağı<br>Orta<br>Yüksək | 10<br>0<br>0 | 100<br>0<br>0 | 0<br>2<br>8 | 0<br>20<br>80 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Mülkiyyət əleyhinə cinayət törətmiş qadınlar | Aşağı<br>Orta<br>Yüksək | 8<br>2<br>0 | 80<br>20<br>0 | 0<br>2<br>8 | 0<br>20<br>80 |

Cədvəl 3.7-dən göründüyü kimi həm şəxsiyyət, həm mənəviyyat və həm də mülkiyyət əleyhinə cinayət törətmiş qadınların xüsusi terapiya proqramının tətbiqindən əvvəl müəyyən edilən özünügerçəkləşdirmə üzrə göstəriciləri ilə terapiya proqramının tətbiqindən sonra müəyyən edilən özünügerçəkləşdirmə üzrə göstəriciləri bir-birindən fərqlənir. Bu fərqlərin statistik göstəricilər üzrə əhəmiyyətli olduğunu aydınlaşdırmaq üçün cütləşmiş "T" sınağı statistikasından istifadə etdik.

Şəxsiyyət, mənəviyyat və mülkiyyət əleyhinə cinayət törətmiş qadınların terapiya proqramının tətbiqindən əvvəl olan özünügerçəkləşdirmə üzrə nəticələri və terapiya proqramının tətbiqindən sonra olan özünügerçəkləşdirmə üzrə nəticələri arasında əhəmiyyətli fərqlərin statistik göstəriciləri

Cədvəl 3.8

| Mövqe | Orta | Standart yayınma | Standart orta səhv | Fərqlərin 95% mötəbər intervalı | | t | Fərq | Əhəmiyyətlidir (2 tərəfli əlaqə) |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | Aşağı | Yuxarı | | | |
| Şəxsiyyət əleyhinə cinayət törətmiş qadınların özünügerçəkləşdirməsi | -1.80000 | .42164 | .13333 | -2.10162 | -1.49838 | -13.500 | 9 | .000 |
| Mənəviyyat əleyhinə cinayət törətmiş qadınların özünügerçkəkləşdirməsi | -1.80000 | .42164 | .13333 | -2.10162 | -1.49838 | -13.500 | 9 | .000 |
| Mülkiyyət əleyhinə cinayət törətmiş qadınların özünügerçəkləşdirməsi | -1.60000 | .51640 | .16330 | -1.96941 | -1.23059 | -9.798 | 9 | .000 |

Cədvəl 3.8-dən görünür ki, cütləşmiş "T" sınağının əhəmiyyətlilik dərəcəsinə diqqət yetirməklə nəticələr arasında əhəmiyyətli fərqlərin olmaması variantı inkar olunur. Belə bir nəticəyə gəlirik ki, həm şəxsiyyət, həm mənəviyyat, həm də mülkiyyət əleyhinə cinayət törətmiş qadınların terapiya proqramının tətbiqindən əvvəl olan özünügerçəkləşdirmə üzrə nəticələri və terapiya proqramının tətbiqindən sonra olan özünügerçəkləşdirmə üzrə

nəticələri arasında əhəmiyyətli fərqlər mövcuddur. Həmçinin bu nəticələrə əsaslanaraq bildiririk ki, xüsusi terapiya proqramı hər üç qrupda effektiv olmuşdur.

Beləliklə, əldə edilən nəticələr cinayətkar qadın şəxsiyyətinin resosializasiyası üçün cinayətkar qadınlara yönəlik resosializasiya edici xüsusi terapiya proqramının əsasını təşkil edir.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli **"Cinayətkar qadınlara yönəlik resosializasiyaedici xüsusi terapiya proqramı"** adlanır. Əldə edilən nəticələr əsasında bu yarımfəsildə cinayətkar qadın şəxsiyyətinin resosializasiyası üçün cinayətkar qadınlara xüsusi özünügerçəkləşdirməyə istiqamətlənmiş resosializasiyaedici terapiya proqramı təsvir edilir. Qeyd edək ki, təklif etdiyimiz proqram cinayətkar qadın şəxsiyyətinə fərdi yanaşmanı ehtiva edir. Terapiya proqramının əsas xüsusiyyəti cinayətkar qadının özünügerçəkləşdirməsini inkişaf etdirəcək psixoloji mühiti təşkil etməklə onun özünügerçəkləşdirmək istəyini formalaşdırmaqdan və məruz qaldığı zorakılığın psixoloji vəziyyətinə olan neqativ təsirlərini aradan qaldırmaqdan ibarətdir. Proqram iki mərhələləli olub birinci mərhələsi cinayətkar qadın tərəfindən zorakılığa məruz qalmanın və şəfqət hissindən məhrumluğun şəxsiyyətə, onun özünügerçəkləşməsinə olan mənfi təsirlərini müəyyənləşdirməsinə, həmçinin cinayətin törədilməsi ilə zorakılığa məruz qalma və şəfqət hissinin olmaması amillərinin qarşılıqlı əlaqəsini təhlil etməsinə istiqamətlənir. Proqramın ikinci mərhələsi isə cinayətkar qadının assertivlik xüsusiyyətinin formalaşdırılmasına, onun daxili potensialını aşkarlamasına, ümumbəşəri dəyərlər sisteminə yiyələnməsinə, başqa sözlə zorakılığın şəxsiyyətə olan mənfi təsirlərinin aradan qaldırılmasına, onun özünügerçəkləşdirməsinə istiqamətlənir.

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli **"Cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji xüsusiyyətləri ilə əlaqədar metodik tövsiyyə"** adlanır. Bu yarımfəsildə tədqiqatın nəticələrinin Azərbaycanda Qadın Cəzaçəkmə Müəssisəsində islah sferasında tətbiqinin zəruri oldugu fikri təsdiqlənir və cinayətkar qadın şəxsiyyətinin resosializasiyasının psixoloji xüsusiyyətləri ilə əlaqədar metodik tövsiyyələr irəli sürülür.

Psixoloji ədəbiyyatın təhlili və apardığımız tədqiqatın ümumiləşdirilməsi aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- Apardığımız tədqiqat zamanı aydın olmuşdur ki, şəxsiyyətin resosializasiyası prosesinin onun özünügerçəkləşdirməsinin mərhələlərindən asılı olaraq yeni müstəvidə araşdırılması daha məqsədəuyğundur.

- Tədqiqatlar göstərir ki, resosializasiya prosesinə gender amilinin əhəmiyyətli dərəcədə təsiri var. Qadın şəxsiyyətinin resosializasiyası prosesi kişi şəxsiyyətinin resosilizasiyası prosesindən fərqlidir. Qadın şəxsiyyətinin resosializasiyası prosesində patriarxal olmayan və qənaətbəxş münasibətlər sisteminin formalaşdırılmasına istiqamətlənmiş psixoloji mühit xüsusi əhəmiyyətə malikdir.

- Apardığımız tədqiqat göstərdi ki, qadının zorakılığa məruz qalması faktı və daxili şəfqət hissi ilə onun özünügerçəkləşdirməsi arasında həm korrelyasiya, həm də səbəb-nəticə əlaqəsi var. Şəfqət hissi və zörakılığa məruz qalmaq faktı müstəqil dəyişənlər olub, özünügerçəkləşdirməni müəyyən edirlər.

- Tədqiqatların təhlili göstərir ki, cinayətkar qadınlarla üç mərhələli psixoloji işin aparılması məqsədəuyğundur. İlk mərhələdə cinayətkar qadının şəxsiyyət xüsusiyyətlərinin psixodiaqnostikasının keçirilməli, ikinci mərhələdə psixodiaqnostikanın nəticələrinə uyğun olaraq fərdi psixoloji inkişaf proqramı hazırlanmalı, üçüncü mərhələdə isə proqram mərhələləli reallaşdırılmalıdır.

- Apardığımız eksperiment göstərdi ki, cinayətkar qadınlara onların özünügerçəkləşdirməyə istiqamətlənmələri məqsədilə tətbiq edilən xüsusi terapiya proqramımız resosializasiya prosesində effektivdir. Belə ki, terapiya proqramının tətbqiqindən əvvəl özünügerçəkləşdirmə üzrə müəyyən edilən göstəricilərlə, terapiya proqramının tətbiqindən sonra özünügerçəkləşdirmə üzrə müəyyən edilən göstəricilər arasındakı fərqlər əhəmiyyətli statistik göstəricilərə malik olmuşdur.

- Təklif edilən xüsusi terapiya proqramının əsas hədəfi mühitin cinayətkar qadının psixoloji vəziyyətinə olan neqativ təsirlərinin aradan qaldırılması məqsədi ilə özünügerçəkləşdirmək istəyinin formalaşdırılmasından ibarətdir. Proqramın başlıca xüsusiyyəti cinayətkar qadın şəxsiyyətinin özünügerçəkləşdirməsinə istiqamətlənmiş inkişafetdirici, komfortlu mühitin yaradılması vasitəsi ilə onların assertivləşmək, öz daxili potensiallarını aşkarlaya bilmək və ümumbəşəri dəyərləri mənimsəməklərinə nail olmaqdır.

- Təklif edilən terapiya proqramı ilə işləməyin müsbət cəhətlərinə islah zamanı cinayətkar qadına münasibətdə avtoritar və cəzaya istiqamətlənmiş reqlamentdən imtina etmək, islah prosesini cinayətkar qadın tərəfindən törədilən əməlin müstəqil təhlilinə, onun hiss və yaşantılarına, şəxsi təcrübəsinə istinad edərək təşkil etmək məsələləri aiddir.

Tədqiqat cinayətkar qadın şəxsiyyətinin resosializasiyası prosesində şəxsiyyətin özünügerçəkləşdirmə potensialı, bu istiqamətdə onun inkişaf imkanları və şəxsiyyətin təşəkkülü ilə əlaqədar ortaya çıxan bütün məsələləri həll etmir. Tədqiqatın nəticəsi olaraq əldə edilən məlumatlar, yəni, cinayətkar qadın şəxsiyyətinin resosializasiya olunmuş şəxs kimi təşəkkül tapmasını ehtiva edən konseptual və elmi - əyani məsləhətlər islah psixologiyasında yeni istiqamətlər açmasına əsas verir.

Dissertasiyanın əsas müddəaları **müəllifin** aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır.


1. Köməksizlik vəziyyətinin psixoloji mahiyyəti və diaqnostikası // Psixologiya jurnali, Bakı, 2009, № 4, s. 187-197
2. Köməksizlik vəziyyətinin məhkəmə-psixoloji ekspertizasının təşkili məsəlləri // Psixologiya jurnali, Bakı, 2010, № 2, s. 149-158
3. Şəxsiyyətin emosional və intellektual sferalarının qarşılıqlı təsirinin psixoloji məsələləri // Psixologiya jurnali, Bakı,2010, № 4, s. 117-126
4. Müasir qadın cinayətkarlığının psixoloji xüsusiyyətləri / "Müasir dünyada inteqrasiya və müqavimət prosesləri" mövzusunda Beynəlxalq Elmi Konfrans, Azərbaycan Universiteti. Konfrans materialları. Bakı: 2012, s.209-212.
5. Kamil şəxsiyyətin psixoloji tədqiqi // Psixologiya jurnali, Bakı,2012, № 3, s. 37-50
6. Qadın şəxsiyyətinə yeni baxış // Psixologiya jurnali, Bakı,2013, № 2, s. 128-138

7. Məhkum qadınların mənəvi-psixoloji keyfiyyətlərinin tədqiqi / "Heydər Əliyevin milli dövlətçilik və milli inkişaf strategiyası" mövzusunda Beynəlxalq Elmi-Praktik Konfrans, Azərbaycan Universiteti, Konfrans materialları.Bakı: 2013, s.167-174.

8. Cinayətkar qadın şəxsiyyətinin biopsixososial səciyyəsi / Doktorant və gənc tədqiqatçıların XVIII Respublika Elmi Konfransı. Bakı: 2013 (2), s.315-316

9. Криминологическая и психологическая характеристика женской преступности // Вектор науки Тольяттинского Государственного Университета. Серия Педагогика, психология, №1(16), 2014, с. 23-27

10. Cinayətkar şəxsiyyətinin psixoloji tədqiqi // Psixologiya jurnali, Bakı,2014, № 1, s. 99-109

11. Müasir psixososial cinayi davranış nəzəriyyələrinin təhlili // Psixologiya jurnali, Bakı,2014, № 2, s. 97-102

12. Cinayətkar qadın şəxsiyyətinin eksperimental tədqiqinin nəticələri / Doktorant və gənc tədqiqatçıların XIX Respublika Elmi Konfransı. Bakı: 2015 (2), s.218-220

13. Psychological basis of female criminal behavior // İnternational Psychological Applications Conference and Trends, Ljubljana, Slovenia, 2015, s.333-335

14. Analysis of self-actualizated women's feelings / 30th EFPSA Congress European Federation of Psychology Student's Associations. Portugal: 2015, s.86

15. Məhkum qadınların resosializasiyasının psixoloji xüsusiyyətlərinin tədqiqi// Psixologiya jurnali, Bakı,2015, № 1, s.72-77

16. Cinayətkar qadın şəxsiyyətinin özünügerçəkləşdirməsi və törədilən cinayət arasında əlaqənin tədqiqi// Psixologiya jurnali, Bakı,2016, № 3, s.76-83

17. Gender əsaslı zorakılığa məruz qalmış cinayətkar və qanunariayətedən qadınların şəfqət hislərinin müqayisəli tədqiqi// Psixologiya jurnali, Bakı,2016, № 4, s.92-98

18. Study of a special psychotherapy program for female criminals / "The creation of the new world in a globalized era", 4$^{th}$ International student congress, IBUISC'17, Skopje. Macedonia: 2017, s.16

*Гюнель Мехман гызы Асланова*

## Психологические особенности ресоциализации личности женщины-преступницы

**Абстракт**

Диссертационная работа посвящена одной из актуальных проблем современности - изучению психологические особенности ресоциализации личности женщины-преступницы, их роли в периоде адаптации и реинтеграции, а также зависимости от типологий личности преступных женщин

**Во введении** обосновываются актуальность и степень изученности темы, объект, предмет, цель и задачи, гипотеза, методологическая основа, научная новизна, научно-теоретическое и практическое значение исследования, положения, выносимые на защиту, апробация.

В первой главе диссертации **«Постановка проблемы в научной литературе и исследовательские направления»** анализируются выделенные отечественными и зарубежными философами и психологами проблемы личности женщины-преступницы, совмещается анализ факторов психологических характеристик и формирования личности преступной женщины сравнительно нового психлогического подхода к личности преступной женщины подчеркивается важность учета гендерного фактора в процессе ресоциализации, а также, теоретические взгляды на эти вопросы.

Третья глава диссертации, которая называется **"Концептуальные основы организации психологической работы с преступными женщинами в пенитенциарном учреждении"**, состоит из трех подзаголовков. В этой главе диссертации подчеркивается важность организации процесса гендерной ресоциализации. А также исследуются задачи организации процесса ресоциализации на основе типологий личности преступных женщин, упоминаются приоритетные направления для повышения эффективности ресоциализации, описываются фазы психологической работы, проводимой в направлении ресоциализации с заключенными-женщинами.

Третья глава диссертации, которая называется **"Экспериментально-психологические исследования психологических характеристик личности женщины-преступницы"** состоит из трех подзаголовков. В этой главе был обоснован выбор экспериментальных методов, отобранных для исследования, и было интерпретировано их использование, было описано содержание эксперимента, его этапы и основные цели, а также преступным женщинам была предложена специальная ресоциализационная программа терапии для ресоциализации личности женщины-преступницы.

**В Заключении** диссертации обобщаются выводы исследования. В частности, подчеркивается, что новый психологический подход к личности женщины-преступницы для понимания формирования личности женщины-преступницы и ее механизмов, для объяснения преступного поведения женщины представляет собой концепцию, основанную на исследование. Таким образом, подверженность насилию и лишение чувства сострадания является основой неспособности к самоактуализации. Ресоциализация личности преступной женщины зависит от выполнения условий, помогающих ему направиться к самоактуализация. Проектирование психосоциальных условий, сочетающих в себе потенциал самоактуализация, требует тщательного и всестороннего изучения всех этих задач.

***Gunel Mehman gizi Aslanova***

**Psychological features of resocialization of female criminal personality**

**SUMMARY**

In the **Conclusion** part are generalized results of the research. Here, in particular, it is underlined, that without knowledge on age and specific features of teenagers it is impossible to be seriously engaged in education of their moral feelings, including friendship. Dissertational work has the scientific-theoretical and practical importance; the results received during research can be applied in researches of formation of the teenager person problem, and also in lecture courses on psychology of development and age psychology.

The dissertation is devoted to the study of psychological characteristics of a re-socialization of a female criminal personality, which is one of the actual problems of the modern era. In the dissertation, in addition to researching the negative impacts of gender-based violence on self-actualization, also were investigated the roles of lack of compassion in the formation of a female criminal personality.

The first chapter of the dissertation, entitled **"Statement of the problem in scientific literature and research directions,"** consists of three subchapters. This chapter examines the research directions of the tasks of personality resocialization, provides a psychological analysis of the female personality, emphasizes the importance of incorporating a gender factor in the process of resocialization.

The second chapter of the dissertation, entitled **"Conceptual basics of the organization of psychological work with female criminals in the penitentiary institution,"** consists of three subchapters. The importance of taking into account the organization of the process of gender resocialization is emphaized; in the penitentiary institution, the tasks of organizing the process of resocialization based on the typologies of the personality of female criminal is examined in this chapter.

The third chapter of the dissertation, entitled **"Experimental-psychological characteristics of the psychological characteristics of the personality of criminal women,"** consists of three subchapters. Here, the choice of the experimental methods selected for the study was justified, and their use interpreted, the contents of the experiment, its stages and main goals described, and a special re-socialization therapy program proposed for female criminals.

In the **Conclusion** part are generalized results of the research. It is noted that a new psychological approach to the female criminal personality is a concept based on research. Thus, exposure to violence and depriving the sense of compassion is the basis of the inability to self-realization Resocialization of the personality of a criminal woman depends on the fulfillment of the conditions that help him to go to self-actualization. The elaboration of psychosocial conditions, combining the potential for self-realization, requires a thorough and comprehensive study of all these tasks.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**Гюнель Мехман гызы Асланова**

# Психологические особенности ресоциализации личности женщины-преступницы

**6117.01 – Юридическая психология**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени**
**доктора философии по психологии**

**Баку – 2018**